UOT 94 (470) «19/...»

# XIX ƏSRİN SONU- XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ YELİZAVETPOL QUBERNİYASINDA MÜLKƏDAR TORPAQ SAHİBLİYİNİN TƏKAMÜLÜ

**F.E.BAXŞƏLİYEV**
***Bakı Dövlət Universiteti***
***baxsaliebfazil@yahoo.com***

*Kəndli Əsasnaməsinin qəbulundan sonra azərbaycanlıların yaşadığı Yelizavetpol quberniyasında kapitalist münasibətlərinin yaranması, mülkədar təsərrüfatları daxilində baş vermiş dəyişikliklərin davamı olaraq XX əsrin əvvəllərində mülkədar-sahibkar kəndinin əvvəlki simasının dəyişdiyi, ənənəvi təsərrüfat formalarının təkamülü, əmtəə-pul münasibətlərinin Azərbaycan kəndinin bu hissəsinə də sirayət etdiyi göstərilir. Mülkədarların və bəylərin öz təsərrüfatlarını şəxsən özlərinin ya köhnə, ənənəvi formalarda, ya da muzdlu əməkdən, yeni mütərəqqi becərmə üsullarından, kənd təsərrüfatı maşınları və s. istifadə etməklə idarə etməsi yeni cəhət idi.*

**Açar sözlər:** torpaq, kənd təsərrüfatı, kapitalist, kəndli əsasnaməsi, faiz

Şimali Azərbaycanda islahatdan sonra əmtəə-pul münasibətlərinin inkişafı, xüsusi-mülkədar torpaq sahibliyinin və onlardan istifadə formalarının təkamülü Rusiyanın Cənubi Qafqazdakı aqrar siyasətindəki yeniliklərin əksi idi (9, 121-124;414;587). 1870-ci il 14 may Kəndli Əsasnaməsinin qəbul edilməsindən sonrakı bir neçə on il ərzində Şimali Azərbaycanda aqrar münasibətlərin mürəkkəb olduğu bir şəraitdə (7, 214), kənd təsərrüfatı sahələrində gedən proseslərin təsirinin hiss olunduğu sahələrdən biri də mülkədar torpaq sahibliyi idi (11, 71). XIX əsrin sonlarından başlayaraq, kənd təsərrüfatında kapitalist münasibətlərinin genişlənməsinə bütün imperiyada baş vermiş dəyişikliklərin təsiri nəticəsində yerli idarəçilik orqanları da əmtəə-pul münasibətlərinin artırılmasında maraqlı olaraq mülkədarların təsərrüfatçılığın yeni metodlarına keçmələrini stimullaşdırmağa çalışır, kreditlər verir, kənd təsərrüfatı maşınları gətirir və s. tədbirlər görürdülər (2, v.40).

Diqqəti cəlb edən cəhətlərdən biri mülkədar və bəylərin malikanələrinin bölünməsi prosesinin sürətlənməsi və buna uyğun olaraq, torpaq sahələrinin varislər arasında bölünməsi nəticəsində torpaq mülkiyyətçilərinin sayının artması idi (12, 252-253).

XX əsrin əvvəllərində mülkədar torpaq sahibliyinin durumunda vəziyyət bir neçə baxımdan dəyişir. Şimali Azərbaycanda bütün mülkədarların cəmi 70 %-dən bir qədər çoxunu təşkil edən torpaq sahibi olan bəylərin hər birinin

cəmi 25 desyatinə qədər ümumi torpaq sahəsi var idi. Bəy və ağaların cəmisi 16 %-dən bir qədər çox hissəsi 25-100 desyatin arası, cəmi 8%-i 100-500 desyatin arası, yalnız 4%-i 500 desyatindən yuxarı torpaq malik idi (1, v.8-9).

Mülkədar torpaqlarının həcmi baxımından çoxlu maraqlı faktlar aşkar edilmişdi. Zaqafqaziya Statistika İdarəsinin XIX əsrin sonu – XX əsrin əvvəlinə aid müxtəlif nəşrlərində mülkədar və bəylərin torpaqlarının həcminin müəyyən edilməsi üçün adətən üç meyar – xırda, orta və iri mülkiyyətçilər təbəqəsinin olduğu əsas götürülürdü (14, 7). Lakin bəzi nəşrlərin verdiyi məlumatlar bu malikanələri malik olduqları torpaq sahələrinin həcmi baxımından 12 dərəcəyə bölür. Bunlar 0,5 desyatindən başlayıb 1000 desyatindən yuxarı torpaq sahələri arasında dəyişərək malikanə torpaqlarını dəqiq sayı ilə müəyyən etməyə imkan verir (16, 38-44).

Bakı hesablama palatasının məlumatına əsasən Yelizavetpol quberniyası üzrə 8 qəzada 440798 desyatin xüsusi mülkiyyət torpağı olan 2744 mülkədar və bəy malikanəsi qeydə alınmışdı. Quberniyada xüsusi mülkiyyətdə olan torpaq sahələrinin çoxluğu baxımından 128534 desyatin sahə ilə Yelizavetpol qəzası birinci yerdə idi. Bu baxımdan 2-4-cü yerləri bölünən Cavanşir (67016), Zəngəzur (64650) və Şuşa qəzaları (70830) mülkədar malikanələrinin sayı baxımından müəyyən qədər fərqlənsələr də, xüsusi torpaq sahəsinin həcmi baxımından son 3 yeri tutan Cəbrayıl (21532 desyatin), Ərəş (26022 desyatin) və Qazax (27135 desyatin) qəzalarının mülkədar malikanələri miqyasca müəyyən qədər geri qalırdılar (16, 87).

Quberniyada sahibkar torpaqlarının otlaq sahəsi olan hissəsi (210218 desyatin) bütün digər sahələrin hər birindən ayrılıqda çox idi. Otlaq sahələrinin ardınca 2-ci yerdə 161 789 desyatin ərazidə əkin sahələri dayanırdı. Quberniyada mülkədar malikanələrin torpaqlarının Bakı quberniyası ilə müqayisədə 1,7 dəfə çox olmasına baxmayaraq, meşəlik xüsusi mülkiyyət torpaqları 64371 desyatin idi və bu, Bakı quberniyası ilə müqayisədə (103667 desaytin) cəmi 62 faiz təşkil edirdi (16, 69,87).

Quberniyada ən az torpaq sahəsi bağ əkinləri Bakı quberniyasında olduğundan təxminən 3,8 dəfə az idi – 4418 desyatin 1242 desyatinə qarşı. Quberniyada əkin sahələri çox olan mülkədar torpaqlarının sahəsinə görə Yelizavetpol qəzası birinci, Cəbrayıl qəzası sonuncu yerdə idi. Mülkədar malikanələrində otlaq sahələri ən çox yenə Yelizavetpol qəzasında (70037 desyatin), ən az isə Ərəş qəzasında (7897 desyatin) idi. Yelizavetpol qəzası xüsusi mülkiyyət torpaqlarında yerləşən meşəlik sahələrin həcmi baxımından da birinci yerdə (20216 desyatin) idi və bu göstərici üzrə son yerlərdə olan Cəbrayıl (473 desyatin) və Ərəş qəzalarını (450 desyatin) 46 dəfəyə yaxın qabaqlayırdı. Mülkədar malikanə torpaqlarının təyinatı baxımından digər göstəricilər üzrə aralıq mövqelərdə dayanan Nuxa və Şuşa qəzaları digər qəzalarla müqayisədə daha çox bağ sahələrinə (müvafiq olaraq 948 və 1079 desyatin) malik idi və bu cəhətdən quberniyada son yeri 219 desyatin bağ sahələrinə malik Cəbrayıl qəzası tuturdu (16, 87).

Şimali Azərbaycanın mülkədar kəndlərində başqa bir cəhət sahəsindən malikanələrin torpaqlarının sahəsindən asılı olmayaraq bir və ya bir neçə kənd daxilində eyni vaxtda 2-3 və ya daha çox sahibkara məxsus olması idi.

Quberniyada bir kəndin və 1-2 malikanə torpaqlarını öz aralarında bölmüş olan «digər iştirakçı mülkiyyətçilər» daha çox idi. Belə ki, quberniya üzrə 157 malikanə və ya kəndi əhatə edən 823 bu cür mülkiyyətçilər qeydə alınmışdı. Bu cür mülkiyyətçi şəxslər ən çox Yelizavetpol qəzasında (397 nəfər) və Şuşa qəzasında (307 nəfər), ən az isə Cavanşir qəzasında (43 nəfər) qeydə alınmışdı. Burada mülkiyyətçi şəxslərin say çoxluğu – 254 nəfəri 380 desyatindən çox həcmdə torpaq sahələrini bölüşürdülər (16, 91).

Mülkədar və bəylərə məxsus malikanə torpaqlarının ayrı-ayrı qəzalar və quberniyalar üzrə təxminən yarıdan çoxunun sahibkar kəndlərində yaşayan kəndlilərin pay torpaqlarını təşkil etdiyini bilərək (13, 10-11),sahibkarlar torpaqlarının istifadə edilməsi problemlərini araşdırdıqda, ilk növbədə bunların bir hissəsində mülkədarların və bəylərin öz təsərrüfatlarını şəxsən yeni yaranan əmtəə-pul münasibətlərinin genişlənməsi tələblərinə uyğun muzdlu əməkdən, yeni mütərəqqi becərmə üsullarından, kənd təsərrüfatı maşınları və s. istifadə etməklə idarə etməsinin şahidi də oluruq (8, 28).

Lakin sahibkarların müəyyən hissəsi başqa yolla gedərək torpaq sahələrini ya bir illik, ya da 2-3 illik, yaxud da daha uzun müddətə icarəyə verirdilər (10, 168). Quberniya üzrə əsrin sonunda sahibkar torpaqlarının 1/3-i 600391 desyatin kəndlilərə və s. şəxslərə icarəyə verilmişdi. Halbuki sahibkar kəndlilərin istifadəsindəki pay torpaqları 124314 desyatin idi (5, 4).

Həmin vaxt sahibkar torpaqlarının kəndli pay torpaqlarını təşkil edən hissəsi 1 229 942, bilavasitə özlərinin idarə etdikləri ərazi isə 11954,8 desyatin idi. Beləliklə, Yelizavetpol quberniyası üzrə 1842368 desyatin xüsusi mülkiyyət torpaqlarının təyinatını araşdırdıqda aşağıdakı mənzərənin şahidi oluruq: bu torpaqların 66,7 faizi kəndli pay torpaqları, 30,68 faizi icarəyə verilmiş, cəmi 0,7 faizdən bir qədər çoxu isə mülkədarların öz istifadəsində qalan torpaq sahələri olmuşdur (16, 90). Göründüyü kimi, quberniyada torpaq sahiblərinin özlərinin idarə etmədiyi, yalnız məhsul və pul rentası formasında icarəyə verdikləri torpaq sahələri sahibkar kəndlilərinin pay torpaqlarının təxminən yarısına yaxın idi (4, vv.20-35).

XIX əsrin sonu – XX əsrin əvvəllərində mülkədar və bəylərə məxsus torpaq sahibliyində nəzərə çarpan digər yeni cəhət, nağd pul ehtiyacın artması səbəbindən torpaq sahələrinin müxtəlif banklara girov qoyulması idi (3, v.10). Hesablamaların aparıldığı 1899, 1901, 1902, 1906-cı illərdə mülkədar torpaq sahələrinin ümumi həcmində ciddi dəyişiklik yaranmasa da (Yelizavetpol quberniyasında xüsusi mülkiyyət torpaqları 10 ildə 513779 desyatindən azalıb 509130 desyatin olmuşdu), girovqoyma dərəcəsi artmaqda idi. 1902-ci ildə Yelizavetpol quberniyasında girovqoyma faizi 4, belə torpaqlar 21582 desyatin idisə, Bakı quberniyasında 38 faiz və 67381 desyatin idi (6, 43).

Yelizavetpol quberniyasında girovqoyma faizi 1896-cı ildəki 1 faizdən, 1906-cı ildə 7 faizə yüksəlmişdi. Lakin bu göstəricilər quberniyalar üzrə mövcud xüsusi mülkiyyət torpaqlarının ümumi sahəsinə əsaslandığı üçün, biz bir az irəli gedib deməliyik ki, Yelizavetpol quberniyasında xüsusi mülkiyyət torpaqları Bakı quberniyasına nisbətən 2,8 dəfə çox olduğu üçün, faiz göstəricilərinin müxtəlifliyinə baxmayaraq girov qoyulan xüsusi torpaqların sahələri baxımından fərq o qədər də yüksək deyildi. Məsələn, 1902-ci ildə girovqoyma faizləri bir-birindən 7 dəfə fərqli (38 faizə qarşı 4 faiz) olsa da, girov qoyulan torpaq sahələrinin həcmi cəmi 3 dəfə az və ya çox idi. Bakı quberniyasında 67381 desyatin, Yelizavetpol quberniyasında 21582 desyatin. 1906-cı il Yelizavetpol quberniyası üzrə bu baxımdan ən yüksək səviyyə sayılırdı və həmin il quberniya üzrə 509 130 desyatin xüsusi mülkiyyət torpaqlarının 7 faizi və ya 37894 desyatini girov qoyulmuşdu və bu rəqəm elə həmin Bakı quberniyasında girov qoyulmuş xüsusi torpaq sahələrinin yarısından da çox idi.

| S\n | Quberniyalar | Alınmış borc | 1896.01.01 tarixə olan borc | Alınmış borc | 1906.01.01 tarixə olan borc |
|---|---|---|---|---|---|
| 1. | Bakı | 82600 r. | 81172 r. | 924 700 r. | 904598 r. |
| 2. | Yelizavetpol | 139713 r. | 133 233 r. | 1193550 r. | 116 839 r. |

Cədvəldən göründüyü kimi Yelizavetpol quberniyası üzrə xüsusi torpaqların girov qoyulması əvəzində alınmış borc daha yüksək idi və bu göstərici 10 il ərzində təxminən 8,5 dəfə artmışdı. XX əsrin əvvəllərində Yelizavetpol qəzasında mülkədar torpaq sahibliyinin durumununun araşdırılması da, XIX əsrin sonu ilə müqayisədə digər dəyişikliklərin baş verdiyini söyləməyə imkan verir.

Quberniya üzrə 1614 kənddən 804-də və ya 49,82 faizində sahibkar torpaqlarının mövcud olmasını əsas götürsək, onda Bakı qəzasında cəmi bir qəzanın bu baxımdan olan göstəricisinin orta quberniya göstəricisindən yüksək olduğu halda, Yelizavetpol qüuberniyasında 3 qəzada-Şuşa (76 faiz), Cavanşir (73,57 faiz), Cəbrayıl (65,55 faiz) – bu mənzərə ilə rastlaşırıq. Nuxa (22,65 faiz), Ərəş (34,3 faiz), Zəngəzur (35 faiz), Qazax (40,9 faiz) və Yelizavetpol (40,93 faiz) qəzalarında orta quberniya göstəricilərindən aşağı olması, əslində onların ərazisin də sahibkar torpaqlarının azlığı ilə bağlı deyil. Bu baxımdan yalnız Nuxa qəzası istisna təşkil edir. Qəzada 29 sahibkar kəndində cəmi 6600 desyatin xüsusi torpaqların qeydə alındığı quberniya üzrə ümumi mənzərəyə uyğun gəlir (15, 297).

Sahibkar kəndlərinin ümumi sayda faizlə sahibkar torpaq sahələrinin çoxunun uyğun gəlməsi Cəbrayıl (65,55 faiz və 31924 desyatin), Cavanşir (73,57 faiz və 64934 desyatin), Şuşa (76 faiz və 70830 desyatin) qəzalarında ümumi mənzərə ilə həmahənglik təşkil edir.

| № | Qəzaların adı | Kəndlə-rin sayı | Mülkədar və bəylərin torpaq sahiblərinin qeydə alındığı kəndlər | Kəndlərin ümumi sayında faizi | Xüsusi mülkiyyətdə olan torpaq sahələri (desyatinlə) |
|---|---|---|---|---|---|
| 1 | Yelizavetpol | 171 | 69 | 40,93 | 58960 |
| 2 | Ərəş | 137 | 47 | 34,3 | 16463 |
| 3 | Cəbrayıl | 171 | 107 | 65,55 | 31924 |
| 4 | Cavanşir | 227 | 164 | 73,57 | 64934 |
| 5 | Zəngəzur | 406 | 147 | 35 | 40700 |
| 6 | Qazax | 132 | 56 | 40,9 | 27035 |
| 7 | Nuxa | 128 | 28 | 22,65 | 6600 |
| 8 | Şuşa | 242 | 183 | 76 | 70830 |
| | Quberniya üzrə | 1614 | 804 | 49,82 | 317450 |

Bakı quberniyası ilə müqayisədə diqqəti cəlb edən başqa bir maraqlı məsələ bu idi ki, Yelizavetpol quberniyasında bütün qəzalarda sahibkar kəndlərin sayı 100-dən çox olduğu, hətta Şuşa qəzasında 200-ə yaxınlaşdığı halda, birlikdə yalnız bir qəzada-Qubada onların sayı 100-ü keçmiş, daha bir qəzada-Lənkəranda 100-ə yaxınlaşmış, qalan 3 qəzada isə az olmuşdur.

Bu vəziyyətin ilk səbəbi kimi hər iki quberniyanın xüsusi torpaqların sahəsinə görə müqayisəsində təxminən 2 dəfəyə yaxın fərqin olması göstərilsə də, hər halda bu yeganə deyil. Bu məsələdə Yelizavetpol quberniyasının ərazisinin böyük bir hissəsinin əkinçilik üçün daha əlverişli olub daha çox gəlir gətirməsi, irsi mülk torpaq sahiblərinin tarixən, ənənəvi olaraq burada üstünlük təşkil etməsi və s. də rolu və təsiri şübhə doğurmur.

Aşağıdakı cədvəldə Yelizavetpol quberniyasında mülkədar və digər xüsusi mülkiyyət torpaq sahələrinin 5 kateqoriya üzrə yerləşdiyi qəzaların və kəndlərin adları qeyd olunmuşdur (15, 149, 177, 297).

Cədvəldən göründüyü kimi, sahibkar torpaqlarının mövcud olduğu kəndəlrin sayına görə qəzalar arasında fərqlərlə yanaşı, bu torpaqların sahəsi baxımından müxtəliflik mövcuddur. Quberniya üzrə ən çox fərqlənən 100-800 desyatin arasında xüsusi torpaq sahəsi olan kəndlərdir – cəmi 400. Bu göstərici baxımından qəzalar arasında Şuşa irəlidə olmuşdur və qəzadakı 183 kəndin yarıdan çoxunda-94-də xüsusi torpaq sahələri 100-500 desyatin arası idi. 228 kəndin xüsusi torpaq sahəsi göstəriciləri 1-100 desyatin arası dəyişmişdir və bu kəndlərin içərisində 20 desyatindən az torpaq sahəsi olanlar da az deyildi. Yelizavetpol qəzasının Dəngir kəndində 19,19; Tatar kəndində 3,25; Cəbrayıl qəzasının Süleymanlı kəndində 0,75; Arasbar kəndində 12,52; Mollalı kəndində 3,5; Ullu kəndində 2,06; Cavanşir qəzasının Nayibəlilər kəndində 5; Zəngəzur qəzasının Ləyvaz kəndində 7; Nuxa qəzasının Aydın kəndində 2,15; Şuşa qəzasının Darğalı kəndində 10,04 desyatin belə torpaq sahələrinin olması faktları Şimali Azərbaycanda, ümumiyyətlə kiçik və orta miqyaslı xüsusi torpaq sahəsi olan kəndlərin üstünlük təşkil etdiyini göstərir (15, 106, 127, 149, 177, 223, 241, 265).

Sahibkar torpaqlarının mövcud olduğu kəndlərin sayı baxımından 3-cü yerdə 500-1000 desyatin arası torpaq sahələri olan kəndlərdir. Qəzada 1000-2000 desyatin arasında xüsusi torpaq sahəsi olan kəndlərin sayının 44 olması faktı XX əsrin əvvəllərində Şimali Azərbaycan sahibkar kəndində mülkədar və bəylərə məxsus nisbətən iri miqyaslı malikanə təsərrüfatlarının çoxluğundan xəbər verirdi. Bu siyahıda isə yuxarıda verilmiş cədvəldə digər göstəricələr üzrə birinci yeri olmayan Cavanşir qəzası gedir – 12 kənd. Bu isə həmin kateqoriyadan olan kəndlərin 27,2 faizi demək idi.

Ən çox iri həcmdə xüsusi mülkiyyət torpaqlarının qeydə alındığı Yelizavetpol qəzasında Qıraqkəsəmənli (20087 desyatin) və Şuşa qəzasının Şıxlar Qərvənd kəndləri (17108 desyatin) idi (15, 86-87, 288-289). Bunlardan başqa Yelizavetpol qəzasında Yalqışlaq kəndində 4801desyatin (15, 90-91), Xanqərvənd kəndində 2596 desyatin (15, 96-97), Dəllər kəndində 3480 desyatin (15, 100-101), Keçili kəndində 4559 desyatin (15, 102-103), Ayrım kəndində 4983 desyatin (15, 104-105) torpaq sahələrinin olması onların geniş təsərrüfat imkanlarından xəbər verirdi.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Mərkəzi Dövlət Arxivi. f.387, s.1, iş 300.,
2. Azərbaycan Respublikası Mərkəzi Dövlət Tarix Arxivi. f.43, siy.1, iş 3.
3. Az., f.187., siy.1, iş 442
4. ЦГИА РФ, ф.573, оп. 25., д.313
5. Авалиани С.Л. Крестьянский вопрос в Закавказье. В 5-ти т. Т. IV. Тбилиский Государственный Университет. Тифлис: 1920 г.225с.
6. Авалиани С.Л. Крестьянский вопрос в Закавказье. В 5-ти т. Т.V. Тбилиси: Мецниеребаха.. 1986, 121 с.
7. Богданова Н.Г. Аграрные отношения в Азербайджане в 1870-1917 гг. // Исторические записки, М., 1941, № 2, с. 200-227
8. Vəliyev T.T. XX əsr Azərbaycan tarixi. 2 cilddə, II c. Bakı: Təhsil, 2009, 560 s.
9. Гугушвили П. В. Сельское хозяйство и аграрные отношения в Закавказье на рубеже XIX-XX вв., Тбилиси: Академия Наук Грузинской ССР, 1955, 698 с.
10. Исмаилов М.А. Сельское хозяйство Азербайджана в начале XX века. Баку: Элм, 1960.
11. Карцев Д.Н. Аграрные реформы в России 1860 гг. - начало XX века. М.: Дрофа, 2006. 232 с.
12. Умаев А.А. Процессы капиталистического хозяйства в сельском хозяйстве Азербайджана в конце XIX–нач. XX вв., Баку: Элм., 2002, 529 с.
13. Rəhimov Ə.C. 1920-ci ildə Azərbaycanda mülkədar torpaq sahibliyinin ləğvi. Bakı: Azərbaycan SSR EA, 1962, 131 s.
14. Talıbzadə İ.A. Azərbaycanda 1912-ci il aqrar islahatı. Bakı: Azərbaycan SSR EA, 1965, 215 s.
15. Сборник сведений о Елизаветпольской губернии. Тифлис: Типография т-ва «Вереичев и Каменмахер», 1902, 297 s.
16. Сборник статистических данных о землевладении и способах хозяйствования в пяти губерниях Закавказского края. Тифлис: Типография М.Шарадзе. 1899, 841 с.

## ЭВОЛЮЦИЯ ПОМЕЩИЧЬЕГО ЗЕМЛЕВЛАДЕНИЯ В ЕЛИЗАВЕТПОЛЬСКОЙ ГУБЕРНИИ СЕВЕРНОГО АЗЕРБАЙДЖАНА В КОНЦЕ XIX- НАЧАЛЕ XX ВВ.

**Ф.Э.БАХШАЛИЕВ**

### РЕЗЮМЕ

В статье подробно излагается основные изменения происходившиеся в положении помещичьего землевладения во владельческой деревне Северного Азербайджана в начале нового века. Указывается, что помещики и беки Северного Азербайджана в начале нового века и в особенности перед первой русской буржуазной революцией и после нее сталкивались с новыми проблемами. В новых условиях им приходилась прибегнуть к новым методам хозяйствования. Закладка в банках помещичьих земель и их продажа уже превратились в обычное дело. И естественно, размеры помещичьих земель с каждым годом уменьшились.

**Ключевые слова:** земля, сельское хозяйство, капиталист, крестьянский, манифест, процент.

## THE EVOLUTION OF LANDOWNER PROPERTIES IN YELIZAVETPOL PROVINCE OF NORTH AZERBAIJAN LATE IN XIX – EARLY IN XX CENTURIES

**F.E.BAKHSHALIYEV**

### SUMMARY

The article details the major changes occurred in the position of landlordism in the countryside possessory of Yelizavetpol Province in the early new century. It’s indicated that landowners and lords of the Yelizavetpol Province faced new challenges at the beginning of the new century, and especially before and after the first Russian bourgeois revolution. They had to resort to new methods of management under new conditions. Bookmark in banks and landed estates and their sale had become a common thing, and naturally, the size of landed estates decreased each year.

**Key words:** land, agriculture, capitalist, percent